**Müharibənin bitməsinə saatlar** qalmış... // Mədəniyyət. - 2020. - 11 dekabr. - **№ 92**. - S. 5.

Tacəddin Şahəddin oğlu Əzizli Qarabağın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan 2783 nəfər Vətən övladından biridir.

1994-cü ilin 7 avqustunda Salyan rayonunun Sarvan kəndində anadan olub. 2000-ci ildə İsfəndiyar Həsənov adına Sarvan kənd tam orta məktəbinin 1-ci sinfinə gedib. 2004-cü ildən təhsilini Bakıda, Səbail rayonu Rəfail Hüseynov adına 49 nömrəli məktəb-liseydə davam etdirib. 2011-ci ildə məktəbi bitirib. 2012-ci ildə Ukraynada Xarkov Dövlət Ticarət və Qida Sənayesi İnstitutuna qəbul olub. Ali təhsilini başa vurduqdan sonra, 2017-ci ildə Vətənə qayıdaraq hərbi xidmətə yollanıb. Nümunəvi xidmətinə görə fəxri fərmanlarla təltif olunub. 2018-ci ildə hərbi xidməti başa vurub. Şirkətlərin birində ixtisası üzrə işləyirdi.

Atası Şahəddin Əzizlinin sözlərinə görə, oğlu hələ 21 sentyabrda könüllü olaraq orduya yazılmışdı: “Müharibənin ilk günündən Füzuli rayonunun Qaraxanbəyli, Seyidəhmədli kəndləri istiqamətində döyüşlərə qatılıb. Döyüş yoldaşları Tacəddinin Füzulinin Ələsgərli kəndi istiqamətində gedən döyüşlərdə xüsusilə şücaət göstərdiyini deyirlər. Onlara verilən əmrə əsasən, oktyabrın 28-də Tacəddin üç döyüş yoldaşı ilə birgə düşmənin postunu ələ keçirirlər. Çox sayda canlı qüvvəni məhv etməklə düşmənə məxsus 4 avtomobil və xeyli silah-sursat ələ keçirirlər. Sonra Cəbrayıl-Hadrut istiqamətində döyüşürlər”.

Tacəddinin döyüş yolu daha sonra Şuşa istiqamətində davam edib. Şuşa döyüşlərində düşmənlə əlbəyaxa döyüşünə də qatılıb. 9 noyabrda, hərbi əməliyyatların dayandırılmasına bir neçə saat qalmış, Laçın istiqamətində döyüşdə şəhid olub.

Şəhid Tacəddin Əzizli 14 noyabrda doğma kəndində dəfn olunub.

Nur içində yatsın.